

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 151 (23.062)

11 avqust 2018-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasına rəsmi səfərə gələn Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun avqustun 10-da rəsmi qarşılanma mərasimi olub. Mərasim başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun təkbətək və geniş tərkibdə görüşü olub.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon mətbuata bəyanatlarla çıxış ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da ABŞ Konqresinin Nümayəndələr Palatasının kəşfiyyat üzrə daimi xüsusi komitəsinin sədri Devin Nunesin başçılıq etdiyi və komitənin üzvü Rik Kravfordun daxil olduğu nümayəndə heyətini qəbul edib.

## Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib



*2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində keçirilən müşavirəni nazir, general-leytenant Fazil Ələkbərov açaraq geniş məruzə ilə çıxış edib.*

Nazir bildirib ki, ötən dövr ərzində elektrik enerjisi və qazdan sayğacdankənar istifadə hallarının qarşısının alınması məqsədilə aidiyyəti təşkilatlarla birgə reydlər keçirilib, elektrik, qaz və istilik sistemindən istifadə olunan enerjiyə görə haqqın ödənilməsi üçün əhali ilə maarifləndirici söhbətlər aparılıb. Cari ilin müvafiq dövründə elektrik enerjisindən və təbii qazdan qanunsuz istifadə edən 105 nəfər vətəndaş aşkar edilərək barələrində qanunamüvafiq tədbirlər görülüb, ümumilikdə, 37 min 682 manat məbləğində cərimə tətbiq edilərək büdcəyə ödənilib.

Vurğulanıb ki, "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının payız-qış mövsümünə hazırlığı ilə əlaqədar bir sıra işlər görülüb, əsgər kazarmalarının istilik sistemində əvvəlki illərdə mövcud olmuş nasazlıqların aradan qaldırılması məqsədilə təmir işləri aparılıb, elektrik və qaz təsərrüfatı yoxlanılaraq bütün şəxsi heyət isti qış geyim forması ilə təmin olunub. Həyata keçirilən tədbirlər nəticəsində Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadası, eləcə də daxili işlər orqanlarında 2017-2018-ci illərin payız-qış mövsümü problemsiz başa çatıb.

Fazil Ələkbərov bildirib ki, 2018-ci il avqust ayının 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıqla bağlı keçirilən müşavirədə nazirlik qarşısına qoyulan vəzifə və tapşırıqların icrası ilə əlaqədar olaraq bir sıra tədbirlər həyata keçirməlidir. Belə ki, Dövlət Yol Polisi İdarəsi tərəfindən texniki cəhətdən nasaz avtomobillərin qış aylarında hərəkətinə məhdudiyyətlər qoyulmalı, bu cür avtomobillərin aşkarlanması üçün reydlər təşkil olunmalıdır.

Qış aylarında müntəzəm olaraq avtomobil yollarının müayinəsi həyata keçirilməli, buz bağlamış yolların təmizlənməsi və buz bağlama ehtimalı daha çox olan yollarda şor qum tədarükünün görülməsi üçün Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkəti ilə birgə müvafiq tədbirlər həyata keçirilməlidir.

Nazirliyin struktur qurumlarının inzibati binaları müayinə olunaraq qazanxanalarda olan çatışmazlıqlar aradan qaldırılmalı, istilik-qızdırıcı xətləri təmir olunmalı, elektrik enerjisindən və qazdan qənaətlə istifadə edilməklə israfçılığın qarşısı qətiyyətlə alınmalıdır.

"Yanğınsöndürmə vasitələri qış mövsümünə uyğun olaraq hazırlanmalı, hazırkı limitdən qənaətlə istifadə etməklə yanacaq ehtiyatı yaradılmalı, xidməti avtomobillər rezin şinlərlə təmin olunmalı və mühərriklərin donmaması üçün qış aylarında donmayan mayelərdən istifadə olunmalıdır", – deyən nazir diqqətə çatdırıb ki, nazirliyin Maddi-texniki təminat şöbəsi şəxsi heyəti mövsümi isti geyimlərlə təmin etməli, tibb xidməti soyuq havalarda şəxsi heyət arasında yayıla biləcək yoluxucu xəstəliklərin qarşısının alınması üçün müvafiq qabaqlayıcı tədbirlər həyata keçirməlidir. Qazanxanalarda yalnız xüsusi sertifikatı olan vətəndaşlar işə götürülməlidir.

Elektrik enerjisindən və təbii qazdan qanunsuz istifadə etmə hallarının qarşısını almaq məqsədilə aidiyyəti təşkilatlarla birgə reydlər keçirilməli, elektrik, qaz və istilik sistemindən istifadə olunan enerjiyə görə haqqın ödənilməsi istiqamətində şəxsi heyət arasında və əhali ilə maarifləndirici söhbətlər aparılmalıdır.

Qeyd olunub ki, qış mövsümü ilə əlaqədar satışa çıxarılan müxtəlif çeşidli qızdırıcı sobaların standartlara uyğun olub-olmamasını müəyyənləşdirmək üçün əlaqəli dövlət orqanları ilə birlikdə reyd yoxlamaları keçirilməli, köhnə qızdırıcı vasitələrin satışının və istifadə olunmasının qarşısı qətiyyətlə alınmalıdır. Sobalar quraşdırılmadan öncə vətəndaşlarla Fövqəladə Hallar Nazirliyinin yerli qurumlarının əməkdaşları ilə birlikdə sobalardan istifadə haqqında maarifləndirici söhbətlər aparılmalıdır.

Reyd yoxlamaları keçirilərkən sudan israfçılığa yol verilməsi hallarına yol verməmək məqsədilə tədbirlər görülməli və quraşdırılmış su sayğaclarına qanunsuz müdaxilə hallarının qarşısı alınmalıdır.

Qışa hazırlıqla əlaqədar Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasında da müvafiq tədbirlər həyata keçirilməli və qarşıya çıxan vacib məsələlər operativ həll olunmalıdır.

Tədbirdə nazirliyin tabeliyində olan aidiyyəti qurumların rəhbərlərinin çıxışları dinlənilib.

*Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində keçirilən müşavirəni nazir Mayis Əliyev açaraq məruzə ilə çıxış edib.*



Bildirilib ki, payız mövsümündə muxtar respublika ərazisində, o cümlədən ayrı-ayrı rayonlarda, magistral yol kənarlarında, sututarların, su kanallarının ətrafında, meşə fondu torpaqlarında, xüsusilə kənd təsərrüfatı əkinləri üçün yararsız olan ərazilərdə 250 hektardan çox sahədə yaşıllaşdırma, meşəsalma, meşəbərpa, yeni meyvə, üzüm bağlarının salınması tədbirlərinin icra edilməsi nəzərdə tutulmuşdur. Cari ilin yaz əkin mövsümündə muxtar respublika ərazisində, şəhər, qəsəbə və kəndlərdə, ümumilikdə, kənd təsərrüfatı əkinləri üçün yararsız olan 223 hektar sahədə meşəsalma, meşəbərpa işləri aparılmış, yeni meyvə bağları salınmışdır. Ümumilikdə, 15 hektar üzüm bağı, 4 hektar badam bağı olmaqla, 90 hektar sahədə meyvə (ərik, alça, alma, gilənar, tut, badam, üzüm), 133 hektar sahədə meşə massivi, yaşıllıq zolaqları salınmış və əvvəllər əkilmiş sahələrdə, təbii meşələrdə meşəbərpa (toxumla və tinglə) tədbirləri icra edilmişdir. Yaşıllaşdırma tədbirlərində, ümumilikdə, 222 mindən artıq meşə və meyvə tingi, həmişəyaşıl ağaclar, bəzək və gül kolları əkilmişdir. Dövlət proqramına uyğun olaraq meyvəçiliyin inkişaf etdirilməsi məqsədilə inzibati rayonlarda, ümumilikdə, 67,9 hektar sahədə meyvə bağları, qoruyucu yaşıllıq zolaqları salınmış, bərpa işləri aparılmışdır. Bu yaşıllaşdırma tədbirlərində, ümumilikdə, 65 mindən artıq ting əkin dövriyyəsinə daxil edilmişdir ki, bunun da 60 mini meyvə tingi, 23 min 500-ü üzüm kolu, qalanı isə meşə, həmişəyaşıl, bəzək və gül kollarıdır.

Qeyd olunub ki, nazirliyin İstehsalın təşkili, planlaşdırılması və geologiya şöbəsi, Meşə təsərrüfatı idarəsi, Meşəsalma və Meşə tingliyi müəssisəsi tərəfindən 2018-ci ilin payız mövsümündə həyata keçiriləcək əkin və əkin-bərpa, yaşıllaşdırma və yeni meyvə bağlarının salınması işlərinin mütəşəkkil keçirilməsi üçün sentyabr, oktyabr aylarında əkin aparılacaq ərazilərin sxem-planları hazırlanmalı, ting ehtiyatı yaradılmalı, torpaq hazırlığı işləri görülməli, texnika, maşın və mexanizmlər saz vəziyyətə gətirilməlidir. Əkin işlərinin keyfiyyətinin yüksəldilməsi üçün rayonlaşdırma işlərinin aparılması, torpaqların münbitliyinin artırılması tədbirləri davam etdirilməlidir. Xüsusilə dağlıq və meşə fondu ərazilərində toxumla əkin işlərinin aparılmasına üstünlük verilməlidir. Dövlət meşə fondu ərazilərində quruyan ağacların təmizlənməsi və hərbi hissələrə verilməsi işləri müntəzəm şəkildə görülməlidir. Duzdağ daşduz mədən sahəsi ərazisində geoloji kəşfiyyat işləri davam etdirilməli, yeni şaxta yerinin layihə-smeta sənədlərinin hazırlanması başa çatdırılmalıdır.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

*Naxçıvan Beynəlxalq Hava Limanında 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilib. Müşavirədə hava limanının direktoru Mənşur Gülməmmədli məruzə ilə çıxış edib.*

Bildirilib ki, payız-qış mövsümünə hazırlıqla əlaqədar xüsusi avtonəqliyyat xidmətinin maddi-texniki bazasının möhkəmləndirilməsi, lazımi ehtiyat hissələrinin alınması, sürücülərin bilik səviyyəsinin yoxlanması, texnikalardan düzgün və təyinatı üzrə istifadə qaydalarına əməl olunması yönündə maarifləndirmə işləri davam etdirilməli, uçuş-enmə zolağı, dönmə yolları və təyyarə dayanacaqlarında qartəmizləmə metodu verilmiş xüsusi planlara uyğun aparılmalıdır. Hava gəmilərinin buzlaşmaya qarşı emalı, mayelərin toplanması, təyyarələrin yedəklənməsi, qarşılanıb yola salınması prosesləri mövsümə uyğunlaşdırılmalıdır.

Hava limanının direktoru bildirib ki, payız-qış mövsümünə hazırlıqla əlaqədar ən vacib məsələlərdən biri də soyuq havalarda hava gəmilərinin uçuş-enmə zolağına təhlükəsiz, maneəsiz enib-qalxmasının təmin olunmasıdır. Aerodrom təminatı sahəsi bu istiqamətdə ardıcıl hazırlıq işləri aparmalıdır. Mövsümün sonuna qədər uçuş-enmə zolağında cari təmir işləri başa çatdırılmalı, ölçü cihazlarının – skidometr və ATT-2 avadanlıqlarının test yoxlamaları keçirilməli, mühəndis-texnik heyəti işini payız-qış mövsümünə



uyğun təşkil etməli, qartəmizləmə qrafikləri hazırlanmalı və tələb olunan səviyyədə aerodromun normal istismarını təmin etməlidir. Bundan əlavə, qarlı və soyuq havalarda aerovağzal kompleksi və yardımçı binaların, uçuş-enmə zolaqlarının işıqlandırma sistemlərinin yoxlanması reqlamentə uyğun olaraq davam etdirilməlidir. Uçuşların elektrik işıq texnikası ilə təminatı xidmətinin mühəndis-texnik heyəti payız-qış mövsümünə hazırlıqla əlaqədar maarifləndirilməli və test yoxlamaları keçirilməlidir. Dizel generatorlarının, transformatorların, kəsintisiz enerji mənbəyi olan UPS qurğularına texniki baxışın keçirilməsi davam etdirilməlidir. Eyni zamanda mövsümə hazırlıqla əlaqədar yanacaq-sürtkü materialları anbarında qulluq göstərən yanacaq maşınlarının, çənlərin, nasos qurğularının sazlığı nəzarətdə saxlanılmalıdır. Yanacaqların keyfiyyətinə nəzarət, filtr-süzən qurğuların saz saxlanılması, mövsümün sonuna qədər tələb olunan yanacağın toplanılması davam etdirilməlidir.

Bildirilib ki, Aviasiya təhlükəsizlik xidmətinin müşahidə-mühafizə qüllələrində istilik cihazlarının quraşdırılması, rabitə və telefon xətlərinin yoxlanılması və aerovağzal kompleksinin baxış avadanlıqlarına texniki qulluq göstərilməsi işi də davam etdirilməlidir. Bununla yanaşı, Texnoloji avadanlıqların istismarı və təmiri sahəsi yeni quraşdırılan avadanlıqların sazlığını yoxlamalı, teleskopik traplara, liftlərə və baqaj konveyerlərinə payız-qış mövsümü ilə əlaqədar test yoxlamaları keçirməlidir. Ümumilikdə, hava limanının bütün xidmətlərinin payız-qış mövsümünə hazırlığı oktyabrın 15-dək yekunlaşdırılmalıdır.

Tədbir məruzə ətrafında çıxışlarla davam edib.

**Xəbərlər şöbəsi**

# Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində keçirilən müşavirəni nazir, general-leytenant Şamı Abdullayev açaraq qeyd edib ki, ötən müddət ərzində nazirlik tərəfindən muxtar respublikada qazla iş rejiminə keçirilmiş 736 qazanxananın yanğın və texniki təhlükəsizliyi vəziyyəti yoxlanılıb. Müvafiq peşə ixtisası üzrə şəhadətnaməsi olmayan mövsümi işçilər peşə kurslarına cəlb olunaraq, ümumilikdə, 254 nəfər ocaqçı-maşinist ixtisası üzrə hazırlanıb. Standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya idxalına, satışına və istismarına yol verilməməsi üçün 122 ticarət obyektinin sahibkarları və istehlakçıları ilə maarifləndirici söhbətlər aparılıb, onlara bildirişlər təqdim edilib.

Qışa hazırlıqla bağlı nazirliyin balansında olan "Man" və "İveco" markalı yanğınsöndürmə avtomobillərinin yağları, yanacaq və hava filtrləri dəyişdirilib, 16 min litr köpük əmələgətirən maye ehtiyatı yaradılıb, 2 yanğınsöndürmə avtomobili üçün 10 ədəd şin alınıb. Mülki müdafiə alayında 3 aylıq ərzaq, əşya və yanacaq-sürtkü materialları ehtiyatı yaradılıb, hərbi hissənin yaşayış və qeyri yaşayış sahələrində, həmçinin yanğın təhlükəsizliyi şöbələrinin inzibati binalarında və texniki qarajlarında cari təmir işləri aparılıb. 2 əməliyyat-minik, 1 yanğınsöndürmə avtomobili və Mİ-17-1V tipli xilasedici vertolyot təmir etdirilib. Səfərbərlik ehtiyatları anbarında əşya və əmlakların təlimatın tələblərinə uyğun saxlanılması və təzələnməsi, həmçinin 9 ədəd dəm qazını aşkarlayan cihazın Bakı şəhərində texniki nəzarətdən keçirilməsi təmin edilib.

Cari ilin 7 ayında yanğın təhlükəsizliyi orqanları tərəfindən 1036 obyektdə əsaslı, 1228 obyektdə nəzəri yoxlama keçirilib, qaz və elektrik qızdırıcı cihazlarından istifadə zamanı təhlükəsizlik qaydalarına əməl olunması və dəm qazından zəhərlənmələrin qarşısının alınması məqsədilə obyektlərdə maarifləndirici söhbətlər aparılıb. Fövqəladə hallar zamanı muxtar respublikada fəaliyyəti zəruri olan 122 obyektin hazırlıq vəziyyəti yoxlanılıb. Naxçıvan şəhərində və rayon mərkəzlərində 160 yaşayış binasının 5400 mənzilində tüstü bacaları yoxlanılıb, 22 təhlükə potensiallı obyektdə yanğın və texniki təhlükəsizliyin vəziyyəti, mühafizə işinin təşkili nəzarətdə saxlanılıb, həmçinin taxıl ehtiyatları anbarının və un dəyirmanlarının fəaliyyət rejimlərinə nəzarət edilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı müşavirə keçirilib.***

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini, Penitensiar Xidmətin rəisi, ədliyyə general-mayoru Tofiq Həsənov açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıqla bağlı keçirilən müşavirədə cəzaçəkmə müəssisələrinin fasiləsiz istiliklə təmin olunmasını, məhkumların isti geyim və ərzaqla təchizatını diqqətdə saxlamaq barədə müvafiq tapşırıqlar verilib. Verilən tapşırıqların düzgün və vaxtında icra edilməsi üçün xidmət tərəfindən cəzaçəkmə müəssisələrində qazanxanaların fasiləsiz işləməsi, məhkumların isti geyimlə, keyfiyyətli ərzaqla təmin olunması, o cümlədən sağlamlıqlarının qorunması istiqamətində bir sıra işlər görülüb və bu sahədə tədbirlər davam etdirilir.

Qeyd olunub ki, xidmət tərəfindən məhkumlar faydalı əməyə cəlb edilərək müəssisələrin ətrafında 7 hektar ərazidə taxıl və tərəvəz məhsulları əkilib. Əldə olunan məhsullardan 750 kiloqram yarma, 8 ton kartof, 1 ton 500 kiloqram soğan, eləcə də müxtəlif adda tərəvəz məhsulları tədarük edilərək məhkumların istifadəsinə verilib. Eyni zamanda payız-qış mövsümü ilə əlaqədar nəzərdə tutulan 700 kiloqram turşunun hazırlanmasına və müəssisə ərazisində payız əkini ilə bağlı ayrılan ərazilərdə hazırlıq işlərinə də başlanılıb. Əlavə olaraq Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin perimetrində min metr uzunluğu və 4 metr hündürlüyü olan hasarın fasadında, yataqxanalarda və inzibati binalarda, müşahidə qüllələrində və dayaqlarında, eləcə də müəssisənin ətrafında və daxilində təmir-bərpa işləri aparılır.



Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyində keçirilən iclası agentliyin direktoru Bəxtiyar İsmayılov açıb.***

Bildirilib ki, ötən dövrdə standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan, istifadə qaydaları haqqında Azərbaycan dilində müvafiq təlimatı olmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya idxalına, satışına və istismarına yol verilməməsi, bununla əlaqədar istehlakçıların və sahibkarların aidiyyəti qurumlarla birlikdə əvvəlcədən məlumatlandırılması məqsədilə birgə iş planına uyğun olaraq muxtar respublikada fəaliyyət göstərən 122 təsərrüfat subyektində davamlı olaraq müşahidə xarakterli monitorinqlər aparılıb. Təsərrüfat subyektlərinə təhlükəsizlik sistemi, Azərbaycan dilində istifadə təlimatı və keyfiyyətini təsdiqləyən müvafiq müşayiətedici sənədləri mövcud olan elektrik, qaz cihazlarının satışının həyata keçirilməsi barədə bildirişlər və qazla işləyən məişət cihazları üçün təhlükəsiz istifadə üzrə təlimat təqdim olunub.



Qeyd edilib ki, ötən dövr ərzində monitorinqlər üzrə sənaye üsulu ilə hazırlanmayan 45 ədəd qaz başlığı satışdan çıxarılaraq götürülüb, 2 ədəd mətbəx qaz plitəsinin təhlükəsizlik sistemi olmadığı aşkarlanaraq satışdan çıxarılıb. Payız-qış mövsümünə hazırlıq çərçivəsində, ümumilikdə, satış məqsədilə 1955 ədəd qaz sobası, 122 suqızdırıcı idxal olunub, onlardan 1526 qaz sobası, 122 suqızdırıcıda nöqsan aşkarlanmadığından satışına icazə verilib, 429 qaz sobasının isə baxış keçirilərkən dəm qazına qarşı təhlükəsizlik sistemi olmadığı aşkarlanaraq istehsalçı ölkəyə geri qaytarılması təmin edilib. Bununla yanaşı, vətəndaşlar tərəfindən şəxsi istifadə üçün gətirilmiş 63 qaz sobasına baxış keçirilib, onlardan 21-də nöqsan aşkarlanmadığından istifadəsinə icazə verilib, 41-də dəm qazına qarşı təhlükəsizlik sistemi olmadığı, birinin isə yeni olmadığı aşkarlanaraq istehsalçı ölkəyə geri qaytarılması təmin edilib.

Diqqətə çatdırılıb ki, idxal olunan qaz qızdırıcılarına 7 və qaz ləvazimatlarına 34 uyğunluq sertifikatı verilib. Muxtar respublika üzrə 796 qazanxanada 4309 ədəd ölçmə vasitəsi (3162 manometr, 1147 termometr) yoxlamadan keçirilib. Yoxlama zamanı 4 manometr, 3 termometr yararsız hesab edilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *



"Naxçıvanqaz" İstehsalat Birliyində 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən iclası birliyin direktoru Ramin İsmayılov açaraq məruzə edib. Bildirib ki, oktyabr ayının 20-dək qaz təchizatı sistemində texniki baxış yekunlaşdırılmalı, mövcud nasazlıqların aradan qaldırılması üçün tədbirlər görülməli, təbii qazın şaxtalı hava şəraitində nəqli ilə əlaqədar hazırlıq işləri vaxtında başa çatdırılmalıdır. Həmçinin istismar üçün yararsız qaz xətlərinin və avadanlıqların müəyyən edilərək yenilənməsi diqqətdə saxlanılmalı, qaz sayğaclarına müdaxilələrin qarşısını almaq məqsədilə yerlərdə abonent qutularının quraşdırılması işləri ilin sonunadək yekunlaşdırılmalıdır.

Qeyd olunub ki, qazın nəqli zamanı meydana çıxan texniki itki normalarının minimal həddə saxlanılması üçün tədbirlər görülməli, təbii qazdan qanunsuz istifadə hallarına nəzarət gücləndirilməli, istehlak olunan qazın dəyərinin tam həcmdə toplanması təmin edilməlidir. Qaz təsərrüfatında, xüsusilə qəza xidmətində çalışanların ixtisas hazırlığına cəlb olunmasına diqqət artırılmalı, qış mövsümü başlayanadək işçilər müvafiq geyim və avadanlıqlarla təmin olunmalıdırlar.

Vurğulanıb ki, payız-qış mövsümündə təbii qaza olan tələbatın artması ilə əlaqədar qaz nəqli sisteminin daha artıq yüklənməsi və gərgin işləməsi nəzərə alınaraq magistral qaz kəmərləri üzərində quraşdırılan və istismarda olan qazpaylayıcı stansiyalarda sutka ərzində qaz nəqlinin texnoloji rejimi və qaz sərfinin qeydiyyatı ciddi nəzarətə götürülüb və mövsümlə əlaqədar digər tədbirlərin aparılması diqqətdə saxlanılıb.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

*Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələrlə əlaqədar Şərur rayonunda keçirilən müşavirədə rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov məruzə ilə çıxış edib.*



Bildirib ki, hazırda rayon mərkəzindəki 524 mənzilli 17 çoxmərtəbəli yaşayış binasında, müxtəlif yaşayış məntəqələrindəki 47 təhsil, 47 səhiyyə, 94 mədəniyyət müəssisəsində müasir istilik sistemi mövcuddur. Geniş quruculuq tədbirləri aparılan İbadulla, Kosacan və Kərimbəyli kəndlərində inşa edilən, yaxud yenidən qurulan sosial-mədəni obyektlərdə, Şərur şəhərində Tarix-Diyarşünaslıq Muzeyi üçün inşa olunan binada da müasir istilik sistemi quraşdırılacaqdır. Mərkəzləşdirilmiş istilik sistemi olmayan təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin payız-qış mövsümündə yanacağa və tələb olunan avadanlıqlara tələbatı öyrənilib və ümumilikdə, 47 min 460 litr ağ neftə, 65 kvadratmetr şüşəyə, 73 ədəd şiferə, 331 metr polietilen örtüyə ehtiyac olduğu müəyyən edilib. Ayrılan yanacağın və digər avadanlıqların vaxtında təmin olunması istiqamətində işlər davam etdirilməlidir.

Kamal Cəfərov bildirib ki, əhalinin payız-qış aylarında fasiləsiz təbii qaz və elektrik enerjisi ilə təmin edilməsi üçün avadanlıqlara texniki baxış davam etdirilməli, tənzimləyici qurğuların mövsümə uyğun nizamlanması, xətlərdəki nasazlığın vaxtında müəyyən edilməsi, sayğacdankənar istifadənin qarşısının alınması, texnoloji rejimə uyğun həyata keçirilməsi təmin olunmalıdır. Qaz təsərrüfatında çalışanların ixtisas hazırlığına cəlb olunması diqqət mərkəzində saxlanılmalıdır.

Mal-material ehtiyatlarından səmərəli istifadə təmin edilməli, işlənilən materialların yerinə yenilərinin alınıb gətirilməsi və sabit ehtiyatın yaradılmasına diqqət yetirilməlidir.

Qeyd olunub ki, mövcud qazanxanaların fasiləsiz işini təmin etmək məqsədilə onların elektrik enerjisi, təbii qaz və su ilə təchizatı məsələləri nəzarətdə saxlanılmalı, istilik sistemlərinin dayanıqlılığına və qazanxanaların qəbul olunmuş texniki normalar çərçivəsində istismarına diqqət artırılmalıdır. Qazanxanalarda çalışanlar peşə hazırlığı kurslarına cəlb edilməli və sertifikat aldıqdan sonra mövsümi işə qəbul üçün müqavilə bağlanmalıdır.

Rayon Yol Təmir-Tikinti İdarəsi payız-qış mövsümündə nəqliyyat vasitələrinin hərəkətinin fasiləsizliyini təmin etmək üçün texnikaların işlək vəziyyətdə saxlanmasını, maşın və mexanizmlərin ehtiyat hissələrinin yaradılmasını, qum tədarükünü davam etdirməli, qarşıya çıxa biləcək problemlərin həlli üçün indidən tədbirlər görməlidir. Payız-qış mövsümündə marşrut avtobuslarının və taksi maşınlarının qrafikə uyğun hərəkəti və texniki sazlığı diqqətdə saxlanılmalı, mövcud nəqliyyat vasitələri və digər texnikalar saz vəziyyətə gətirilməli, onlar üçün zəruri ehtiyat hissələri yaradılmalıdır.

Bildirilib ki, ilin bütün fəsillərində istehlakçı tələbinin keyfiyyətli məhsullar hesabına ödənilməsi üçün mövsüm ərzində tələbatdan artıq istehsal olunmuş yerli kənd təsərrüfatı məhsullarının soyuducu anbarlar tərəfindən tədarükü davam etdirilməlidir. Soyuducu anbarlara meyvə və tərəvəz məhsullarının tədarükü nəzarətdə saxlanmalı, bu işdə sahibkarlara əməli köməkliklər göstərilməlidir.

Sonra məruzə ətrafında müzakirələr olub.

**Elman MƏMMƏDOV**

* * *



*Kəngərli Rayon İcra Hakimiyyətində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov açıb.*

İcra başçısı bildirib ki, son illərdə həyata keçirilən uğurlu tədbirlərin nəticəsində muxtar respublikamızın bütün bölgələri, o cümlədən Kəngərli rayonu dayanıqlı elektrik enerjisi və təbii qazla fasiləsiz təmin olunur. Mövcud enerjidaşıyıcılarının intensivliyinin artırılmasının, bu sahədə ardıcıl tədbirlərin həyata keçirilməsinin nəticəsidir ki, ilin bütün fəsillərində heç bir problem və çatışmazlıq hiss olunmur.

Diqqətə çatdırılıb ki, rayonda əhalinin etibarlı elektrik enerjisi ilə fasiləsiz təmin olunması üçün mövcud infrastrukturun yenilənməsi davam etdirilməli, istismar üçün yararsız olan avadanlıq və xətlər vaxtında müəyyən edilərək dəyişdirilməlidir. Enerji israfçılığının və elektrik enerjisindən qanunsuz istifadə hallarının qarşısının alınması məqsədilə həyata keçirilən tədbirlər davam etdirilməli, mövsüm ərzində elektrik enerjisindən istifadə zamanı yaranan texniki itki minimuma endirilməli, lazımi mal-material ehtiyatı yaradılmalıdır.

Qaz təchizatı sistemində də müəyyən zəruri tədbirlər görülməlidir. Rayon Qaz İstismar İdarəsi payız-qış mövsümündə fasiləsiz qaz nəqlini təmin etmək üçün mütəmadi olaraq qaz xətlərinə texniki baxış keçirməli, nasazlıqlar və sayğacdankənar istifadələr vaxtında aradan qaldırılmalıdır.

Kamal Ələkbərov bildirib ki, həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq tədbirlərinin nəticəsi olaraq rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların əksəriyyəti müasir istilik sistemi ilə təchiz olunub.

Vurğulanıb ki, mövsüm ərzində bütün qazanxanalarda elektrik enerjisi, təbii qaz və su təchizatı sahəsində mövcud problemlər araşdırılaraq nöqsanlar aradan qaldırılmalı, idarə, müəssisə və təşkilatlarda istilik, su və kanalizasiya xətlərinin istismara yararlılığı yoxlanılmalı, təmirə və ya yenilənməyə ehtiyacı olanların qısa müddətdə dəyişdirilməsi üçün müvafiq tədbirlər görülməlidir.

Təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin fasiləsiz fəaliyyəti təmin edilməli, rayon Kommunal Müəssisələr Kombinatı payız-qış mövsümünə ciddi hazırlaşmalı, yolların vaxtında təmizlənməsi və hərəkətin intensivliyinin təmin olunması üçün kommunal xidmət texnikalarının saz vəziyyətə gətirilməsinə diqqət artırılmalıdır. Baytarlıq İdarəsi heyvandarlıq, quşçuluq və arıçılıqla məşğul olan sahibkarlıq subyektlərinin qışlamaya hazırlığı ilə əlaqədar maarifləndirmə tədbirləri həyata keçirməli, xəstəliklərə qarşı tələb olunan dərman vasitələri ehtiyatının yaradılmasını diqqətdə saxlamalıdır.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Babək İSMAYILOV**

***12 avqust Beynəlxalq Gənclər Günüdür***

# Dövlət gənclər siyasəti uğurla həyata keçirilir



***1998-ci il avqustun 12-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində gənclərlə iş sahəsində keçirilən beynəlxalq konfransda hər il avqustun 12-nin dünyada "Gənclər Günü" kimi qeyd olunması qərara alınmışdır. Həmin tarixdən etibarən Beynəlxalq Gənclər Günü Azərbaycanda da qeyd olunur.***

Sağlam gənc nəslin yetişdirilməsi hər bir ölkə üçün əsas məsələdir. Çünki ölkənin gələcəyi, müqəddəratı gənclərdən asılıdır.

Ölkəmizdə dövlətin gənclər siyasətinin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu öndər sağlamdüşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi kimi daim diqqət mərkəzində saxlamış, gənclərin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatda iştirakının təmin olunmasını vacib hesab etmişdir. Hələ ötən əsrin 70-ci illərindən sağlam gənc nəslin yetişdirilməsini diqqətdə saxlayan dahi şəxsiyyət onların hərtərəfli təhsil alması, hərbi sahədə ixtisaslı kadr kimi yetişməsi qayğısına qalmışdır. Bu dövrdə şəhər, rayon və kəndlərdə məktəb binaları, idman obyektləri tikilmiş, gənclərin asudə vaxtının səmərəli təşkili və milli ruhda tərbiyələnməsi sahəsində ardıcıl tədbirlər görülmüşdür.

Ölkəmiz müstəqillik qazandıqdan və ulu öndər xalqın təkidli tələbi ilə yenidən ali hakimiyyətə qayıtdıqdan sonra isə Azərbaycanda dövlət gənclər siyasəti yeni mərhələyə çıxarılmış, 1994-cü ildə ölkəmizdə Gənclər və İdman Nazirliyi yaradılmış, 1996-cı il fevralın 2-də Azərbaycan Gənclərinin I Forumu keçirilmişdir. Ümummilli liderin müvafiq sərəncamı ilə birinci forumun keçirildiyi gün – fevralın 2-si Azərbaycanda Gənclər Günü elan edilmişdir. Ulu öndər bu sahənin hüquqi bazasının yaradılması, gənclərlə işin daha da təkmilləşdirilməsi məsələlərini də diqqət mərkəzində saxlamış, 2002-ci ildə "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Ulu öndər gənclərin qarşısında mühüm vəzifələr qoyaraq deyirdi: ***"Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir".***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev gənclərin təhsil alması, sağlam və vətənpərvər böyüməsinə xüsusi diqqət yetirir. Dövlət başçısının sərəncamları ilə ölkəmizdə gəncliyin inkişafı ilə bağlı dövlət proqramlarının qəbul olunması, Azərbaycan gənclərinin növbəti forumlarının keçirilməsi bu sahədə görülən işlərin əhatə dairəsini daha da genişləndirmişdir. Azərbaycanın müxtəlif bölgələrində müasir standartlara cavab verən məktəb binaları tikilib istifadəyə verilir, orta və ali təhsil ocaqları müasir avadanlıqlarla təchiz edilir. Elmi müəssisələrin, məktəblərin kompüterləşdirilməsi, gənc nəslin virtual dünyaya çıxışının təmin edilməsi, onların informasiya texnologiyaları ilə işləmək vərdişlərinə yiyələnmələri üçün atılan məqsədyönlü addımlar Azərbaycanda insan kapitalının inkişafına xidmət edir. Ölkə Prezidentinin "2015-2025-ci illərdə Azərbaycan Gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncamı bu baxımdan mühüm əhəmiyyətə malikdir.

Naxçıvan Muxtar Respublikasında da gənclər siyasəti uğurla həyata keçirilir, gənclərin milli ruhda tərbiyəsi diqqət mərkəzində saxlanılır. Onların ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakı, sosial problemlərinin həlli, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının qəbul olunması, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi, bütövlükdə, muxtar respublikada gənclərlə iş sahəsində həyata keçirilən tədbirlərin əsasını təşkil edir. Son illər muxtar respublikada Gənclər Mərkəzi, kitabxanalar, mədəniyyət evləri, ali təhsil müəssisələrində yeni tədris korpusları, məktəb binaları, olimpiya-idman kompleksləri, idman mərkəzləri və digər obyektlər tikilərək və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Gənclərin asudə vaxtlarının səmərəli təşkili, yaradıcılıq potensiallarının üzə çıxarılması da daim diqqət mərkəzində saxlanılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov gənc nəslin əsl vətəndaş kimi yetişdirilməsi zərurətini qeyd edərək demişdir: ***"Biz gələcəyimizin formalaşması qayğısına bu gündən qalmalıyıq. Muxtar respublikamızın gələcəyi bugünkü gəncliyin təhsilə nə dərəcədə yiyələnməsindən, tariximizi, dilimizi, adət-ənənələrimizi necə öyrənməsindən, milli dəyərlərimizi hansı səviyyədə mənimsəməsindən, əsl vətəndaş kimi formalaşmasından asılıdır. Gənc nəsil vətənpərvərlik, Azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında tarixi-mədəni irsimizə, milli və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunmalı, onlar öz intellektual və yaradıcı potensiallarını müstəqil Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafına sərf etməlidirlər".***





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanı muxtar respublikamızda gənclərə göstərilən yüksək diqqət və qayğının daha bir ifadəsidir. Fərmana əsasən Naxçıvan Muxtar Respublikası gənc istedadlarının "Qızıl kitabı" təsis olunmuş, kitaba adları yazılmış gənc istedadlar üçün təqaüdün verilməsi qaydaları təsdiq edilmişdir. Dövlət gənclər siyasətinin tərkib hissəsi kimi Ali Məclis Sədrinin 2012-ci il 29 mart tarixli Fərmanı ilə muxtar respublikada Gənclər Fondu yaradılmış, 2014-cü ilin aprel ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan şəhərində Gənclər Mərkəzi istifadəyə verilmiş, fondun fəaliyyəti təmin olunmuşdur. Bütün bunlar gənclərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi istiqamətində atılan mühüm addımlardır.

Son illər muxtar respublikanın şəhər və rayonlarında olimpiya-idman komplekslərinin, idman mərkəzlərinin, uşaq-gənclər idman məktəblərinin, şahmat məktəblərinin, stadionların, süni örtüklü mini-futbol meydançalarının, orta məktəblərdə idman zallarının və qurğularının istifadəyə verilməsi gənc nəslin fiziki sağlamlığının qorunması və kütləvi bədən tərbiyəsinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Bu imkanlardan istifadə edən gənclərimiz idman sahəsində uğurlar qazanır, keçirilən idman yarışlarında və çempionatlarda muxtar respublikanı layiqincə təmsil edirlər.

Gənclərin asudə vaxtlarının səmərəli təşkili də dövlət gənclər siyasətinin tərkib hissəsidir. Muxtar respublikada bu sahədə ardıcıl tədbirlər həyata keçirilir, gənclərin mənalı istirahəti təmin edilir. Ağbulaq İstirahət Mərkəzində gənclərin "Yay məktəbi"nin keçirilməsi bu baxımdan əhəmiyyətlidir. Yay tətili zamanı təbiət qoynunda dincələn gənclər mənalı istirahətlə yanaşı, muxtar respublikanın təbiətini, turizm potensialını tanımaq imkanı əldə edir, burada təşkil olunan yarış və intellektual müsabiqələrdə iştirak edərək asudə vaxtlarını səmərəli keçirirlər. Sağlamlıq imkanları məhdud gənclərin cəmiyyətə inteqrasiyası istiqamətində görülən işlər də bu sahədə atılan mühüm addımlardandır. 2014-cü ildə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi, audio və elektron kitabxanalar istifadəyə verilmiş, bu kateqoriyadan olan gənclərin təhsili, məşğulluğu və asudə vaxtlarının səmərəli təşkili məqsədilə dövlət proqramı qəbul olunmuşdur.

Gənclərin mütaliəyə marağının artırılması istiqamətində də əhəmiyyətli işlər görülür. Son illər muxtar respublikada fəaliyyət göstərən kitabxanaların yenidən qurulması, maddi-texniki bazalarının möhkəmləndirilməsi, elektron kitabxanaların istifadəyə verilməsi, kənd mərkəzlərində və ümumtəhsil məktəblərində zəngin kitabxana fondunun yaradılması gələcəyimizin daha mükəmməl formalaşmasına hesablanmış mühüm addımlardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Oxunması zəruri olan kitablar" haqqında 2017-ci il 28 avqust tarixli Sərəncamı gənclərdə vətənpərvərliyin, tarixə, milli köklərə bağlılığın formalaşmasında mühüm rola malik olmaqla yanaşı, mütaliə mədəniyyətinin inkişafına da əhəmiyyətli təsir göstərir.

Muxtar respublikada gənc ailələrin mənzil şəraitinin yaxşılaşdırılması da diqqət mərkəzindədir. Son illər yeni yaşayış binalarının tikilib gənc ailələrə verilməsi bu sahədə görülən işlərin davamıdır. Mənzillərin güzəştli ipoteka kreditləri ilə təqdim olunması gənc ailələrə mənzil sahibi olmaq imkanı yaradır.

Gənclərin muxtar respublikanın aparıcı qüvvəsi olması, onlara göstərilən qayğının bariz nümunəsi kimi Naxçıvan şəhərinin 2018-ci il üçün ölkəmizin Gənclər Paytaxtı seçilməsini göstərmək olar. Naxçıvanda həyata keçirilən dövlət gənclər siyasəti, yaradılan hərtərəfli şərait, son illər naxçıvanlı gənclərin beynəlxalq arenalarda qazandıqları uğurlar, Azərbaycanı lazımınca təmsil etmələri sübut edir ki, Naxçıvan bu ada layiqdir.

*Bu gün Naxçıvan Muxtar Respublikasında gənclər milli dəyərlərimizə hörmət ruhunda tərbiyə olunur, yeni ideyaların təşəbbüskarı və dövlət idarəçiliyində aparıcı qüvvə kimi formalaşır, idman, elm, mədəniyyət, incəsənət və digər sahələrdə böyük nailiyyətlər əldə edirlər. Ən əsası isə muxtar respublika gəncləri dövlətçilik ənənələrini daim uca tutur, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət ruhunda böyüyürlər.*

***Naxçıvan Muxtar Respublikası***
***Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Gənclik ilə gələcəyə doğru...

İnsan həyatında körpəlik, yetkinlik, gənclik və qocalıq kimi müəyyən yaş mərhələləri mövcuddur. Bunlardan ən maraqlısı, düşünürəm ki, gənclikdir. Ancaq yaşın bu dövrünü maraqlı, mənalı keçirmək gənclərin özündən asılıdır. Gənclik deyəndə öncə ailəsinə, Vətəninə layiqli övlad ola bilmək ağıla gəlir. Öz Vətənimizi, doğma yurdumuzu tanımaq və tanıtmaq, milli-mənəvi dəyərlərimizə hörmət etmək, onları yaşatmaq, tarixi keçmişimizi unutmamaq, bugünkü ictimai-siyasi proseslərdə fəal iştirak etmək kimi vəzifələri yerinə yetiririksə, o zaman Azərbaycanımıza layiqli gənc olarıq.

Ona görə də bu gün biz gənclərin öhdəsinə çox böyük vəzifələr düşür. Bu vəzifələri sosial şəbəkə, internet vasitəsilə də həyata keçirə, ölkəmiz haqqında önəmli və əsas bilgiləri maraqlı bir şəkildə insanlarla paylaşa bilərik. Məsələn, tariximizlə bağlı qısa videoçarxlar buna misal ola bilər. Bu cür paylaşımlar, düşünürəm ki, biz gənclərin doğma yurdumuza töhfəsi olar. İnternetdən düzgün istifadə edə bilsək, paytaxtımız, bölgələrimiz çoxsaylı insanlar tərəfindən tanınar, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında öz sözümüzü demiş olarıq.

Müasir dövrdə gənclərimizin təhsil sistemi ilə bağlı çoxsaylı tədbirlər həyata keçirilir. Televiziya kanallarında gənclərimiz üçün təşkil edilən intellektual bilik yarışmaları da bunlardan biridir. Bu da, nəticə etibarilə, onların biliklərinin genişlənməsinə, dünyagörüşlərinin zənginləşməsinə gətirib çıxarır. Həmin bilik oyunlarında gənclərimizin istedadlı, savadlı olmaları, hazırcavablığı özünü bir daha təsdiq edir. Azərbaycan gənclərinin xoş sədaları uzaq diyarlardan gəldikcə, yaxud da fərqli sahələr üzrə uğurlara imza atan gənclərimizin səslərini eşitdikcə iftixar hissi duyuruq.

Nəsillər dəyişir, ölkələr inkişaf edir. Ancaq gənc nəslə öyrədiləcək milli dəyərlərimiz, adətlərimiz dəyişməz. Belə bir deyim var ki, hər bir xalq öz gəncliyini öz mədəniyyəti ilə tərbiyə edir. Azərbaycan xalqı da gənclərini vətənpərvər, döyüşkən, hər bir çətinliyə dözən, çətinə düşəndə yorulmadan tab gətirən ruhda yetişdirir. Elə bunun nəticəsidir ki, bu gün Azərbaycan gənci döyüş bölgələrində də qorxmadan, çəkinmədən düşmən üzərinə yeriyir və zəfərlərə imza atır. Gənclərimizin güclü vətənpərvərlik hissləri bunları etməyə tam imkan verir.

Hər bir ölkənin gələcəyinin necə olması onun gənclərindən asılıdır. Yəni gənclik irəli gedərsə, ölkə də inkişaf edər. Sağlam düşüncəyə malik gənc nəslin yetişdirilməsinə ulu öndərimiz Heydər Əliyev hər zaman diqqət və qayğı göstərmiş, gənclərin gələcəyə layiqli vətəndaş kimi formalaşması üçün əlindən gələni əsirgəməmişdir. Günbəgün daha da inkişaf edən dövlət gənclər siyasəti də ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Hazırda ölkəmizdə dövlət gənclər siyasəti keyfiyyət baxımından yeni bir mərhələyə yüksəlib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ulu öndərin yolunu layiqincə davam etdirir, gənclərin idarəetmə sahəsində fəallığını təmin edir, gənc kadrların yetişdirilməsində, onların işlə təmin olunmasında daim diqqət göstərir. Gənclərə göstərilən bu qayğı onların ictimai həyatda fəallığını daha da artırıb. Bunu naxçıvanlı gənclərin timsalında da görmək olar. 2018-ci il üçün Naxçıvanın Azərbaycanın Gənclər Paytaxtı seçilməsi muxtar respublika gənclərinin fəallığının ifadəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov da gənclərimizə hər zaman böyük diqqət və qayğı göstərir, onların tariximizə, milli kökə bağlılığını, dünyagörüşünün formalaşmasını təmin edən tədbirləri diqqət mərkəzində saxlayır. Bu gün biz gənclərin yaxşı təhsil almasında, ölkəmizə, xalqımıza layiqli vətəndaş kimi yetişməsində bu tədbirlərin böyük əhəmiyyəti vardır. Gənclərin sağlam ruhda böyüməsi üçün muxtar respublikamızda Gənclər Mərkəzi, elektron kitabxanalar, ali təhsil müəssisələri yaradılıb. Bir gənc kimi mənim marağımı, diqqətimi çəkən məşğuliyyətlərdən biri xarici dillər üzrə biliklərimi artırmaqdır. Bunun üçün həm mənə, həm də digər gənclərimizə kömək məqsədilə Naxçıvan şəhərindəki Gənclər Mərkəzində xarici dillərin tədrisi üzrə hərtərəfli şərait yaradılıb. Burada gənclərin xarici dillər üzrə istər nəzəri, istərsə də praktik biliklərə yiyələnmələri üçün yüksək standartlar mövcuddur. Bir gənc kimi belə şəraitdə yaşadığım üçün çox sevinciyəm.

Əziz gənclərimiz, gəlin bizim üçün yaradılan imkanlardan layiqincə yararlanaq. Bu imkanlar bizim, nəticə etibarilə, həm də dövlətimizin gələcəyinə hesablanıb. Bizə həmin imkanlardan səmərəli istifadə etmək qalır. Ümummilli liderimiz Heydər Əliyevin bir kəlamını bu məqamda xatırlatmaq istəyirəm. ***"Biz yaratdığımız, qurduğumuz müstəqil Azərbaycan dövlətini gənclərə tapşırırıq. Bizim işimizi gənclər davam etdirməlidir".***

**Telli MUSTAFAYEVA**

# Mənalı istirahət ünvanlarından biri – Heydər Əliyev Mədəniyyət və İstirahət Parkı

***Qızmar yay günlərində hər kəs Günəşin yandırıcı təsirindən qorunmaq, gözəl, mənalı istirahət etmək istəyir. Səfalı guşələri ilə zəngin olan Naxçıvanımızda bu gün həmin arzular gerçəkləşib. Son illər insanların asudə vaxtlarını mənalı, istirahət günlərini yaddaqalan keçirmələri üçün müxtəlif tədbirlər görülür, gözəlliyi ilə gözoxşayan, səliqə-sahmanı ilə könülaçan, insana mənəvi rahatlıq bəxş edən məkanlar yaradılır. Paytaxt Naxçıvan şəhərində onlarla belə istirahət guşəsinin qapıları sakinlərin üzünə açılıb.***



Şəhərin qoynunda yerləşən Heydər Əliyev Mədəniyyət və İstirahət Parkına kiçikdən-böyüyə hər kəs sevə-sevə üz tutur, uşaqlar doyunca əylənir, böyüklər isə mənalı istirahətdən zövq alırlar. Sakinlər arasında buraya “uşaq şəhərciyi” də deyilir. Yolunu bu ünvandan salanlar həmin deyimin təsadüfdən yaranmadığının şahidi olur. Günün istənilən saatında parka üz tutsan, şən, şaqraq gülüşlü uşaqları, onlarla birgə olan qayğıkeş valideynləri, rahat oturacaqlarda əyləşib şirin söhbətlər edən ahıl yaşlı insanları görə bilərsən. Axşam saatlarında bu park bir başqa gözəlliyə qərq olur. Məkanın cəlbediciliyi o qədər böyükdür ki, yoldan keçən, evə tələsən insanlar da bu gözəlliyin sehrinə düşür, bir neçə saniyəlik də olsa, ayaq saxlayıb ecazkar mənzərəyə heyranlıqla tamaşa edirlər. İstirahət məkanında bir-birindən əyləncəli xidmətlər göstərilir. Mexaniki qayıqlarla suda gəzintinin təşkili isə bu yeri daha da cəlbedici edir.

Parkda istirahət edən insanlarla söhbətləşmək üçün sözügedən ünvana yollanıram. Əraziyə çatan kimi ilk diqqətimi çəkən pərvazlanan, qol-qola verib çətir tutan ağaclar, onların qulluğunda dayanan yaşıl libaslı bağbanlar olur. Axşam saatları olduğu üçün işdən çıxan valideynlər övladları ilə birgə buraya gəlirlər. Çox keçmir ki, parkda qələbəlik yaranır. Uşaqlardan kimi yellənçəkdə yellənir, kimi sürüşkəndə sürüşür, kimisi də onlar üçün quraşdırılan digər attraksionlarda əylənir. Valideynlər isə rahat oturacaqlarda əyləşir, ərazidə fəaliyyət göstərən iaşə xidmətlərindən yararlanır, övladlarının əylənmələrinə zövqlə tamaşa edirlər. Bir-birindən maraqlı musiqi sədaları ətrafa yayılır, məkan əsl toy-bayram ab-havasına bürünür. Sərin axşam mehi əsdikcə ağacların yarpaqları xışıldayır, qayıqlarla suda hərəkət edən insanların şən səsləri bir-birinə qarışır.



Bir qədər bu ürəkaçan, gözoxşayan mənzərələri seyr etdikdən sonra nəzərim yaxınlıqda əyləşən nurani qadına yönəlir. Nənə düşüncəli tərzdə oynayan uşaqları seyr edir, üzündə təbəssüm görünürdü. Elə ilk həmsöhbətim də məhz həmin qadın olur. Yaxınlaşıb hal-əhval tutduqdan sonra öyrənirəm ki, müsahibim Naxçıvan şəhərinin Sabir küçəsində yaşayan, yaşı 70-i adlamış Sevil nənədir. Deyir hər gün nəvələrimlə birgə üz tutduğum bu məkanda şən, güləruz, həyatın ağrı-acılarını görməyən xoşbəxt balaları gördükcə öz uşaqlıq çağlarım yadıma düşür. Elə həmin an ürəyim dağa dönür, sevincdən qəhərlənirəm. Sevinirəm ki, yaşadığım o ağrılı-acılı illər artıq arxada qalıb, biz çəkdiyimiz çətinlikləri övladlarımız görmür. Sevil nənə qeyd edir ki, Sovetlər dönəmində bu cür istirahət məkanları tapılmazdı, o zamanlar mənalı istirahət insanlar üçün əlçatmaz idi. O dövrün uşaqları da elə küçədə, tozlu-torpaqlı yollarda oynayardılar. Şükürlər olsun ki, bu gün ölkəmizdə hər kəsə böyük qayğı göstərilir. İndi biz sakinlər üçün belə gözəl, səfalı istirahət məkanları yaradılıb. Burada olan şərait həm uşaqların, həm də böyüklərin mənalı vaxt keçirmələrinə imkan verir. Bütün bunlar bir şəhər sakini kimi mənim ürəyimcədir. Qurub-yaradanlara minnətdarlığımı bildirirəm.





Naxçıvan şəhər Qaraçuq kənd sakini, tarix müəllimi Qara Vəliyev də bu məkana tez-tez üz tutanlar arasındadır. Bu barədə dediklərindən:

– Psixologiyada yaşıl sakitləşdirici, təravətli, canlı, dolğun rəng hesab olunur. Doğma diyarımızın hər tərəfi bu rənglə bəzədilib. Elə qoynunda əyləşdiyim bu parkda da yaşıllıqlar çoxdur. Məşğul olduğum peşə zehni əməyə əsaslandığından tez-tez belə yaşıl guşələrdə oluram. Burada həm dost-tanışla söhbət edir, həm də təbiətin yaratdığı, insan əlinin nəvazişi hesabına boy göstərən ağaclara heyranlıqla tamaşa edirəm. Bununla sanki bütün yorğunluğum da çıxmış olur. İndi də tətil günləri olduğundan tez-tez yolumu bu ünvandan salıram. Ərazidə iaşə xidmətlərinin göstərilməsi çox yaxşı haldır. Buranın səliqə-sahmanı, təmizliyi gözoxşayandır. Bəzən uşaqların bu gözəlliyə biganə yanaşdığının şahidi oluram. Onları başa salıram ki, dövlətimizin biz sakinlər üçün yaratdığı bu imkanlardan səmərəli istifadə etməli, qurulanları qorumalıyıq ki, gələcək nəsillər də bu şəraitdən faydalansınlar.

Digər müsahibim Abbas Həsənov ailəsi ilə birlikdə bu məkanda istirahət edir. Deyir buraya övladlarının istəyi ilə gəlsələr də, özləri də yaxşı istirahət imkanı qazanıblar. Parkda gözəl ab-hava, rahat şərait vardır. Ətrafda görünən hər şey gözoxşayan, könülaçandır. Ən maraqlısı isə mexaniki qayıqlarla suda gəzintidir. Övladlarının hədsiz sevincinə səbəb olan bu əyləncə vasitəsinə hər kəsin marağı çox böyükdür. Ərazidə təhlükəsizlik tədbirlərinin görülməsi xoşagəlməz halların qarşısını alır. Burada ləziz yerli dondurmaların dadına baxmaq imkanları da var. Övladları buranın gözəlliyinə o qədər məftun olublar ki, evə qayıtmaq istəmirlər. Buranın havası da insana xoş təsir bağışlayır. Abbas qeyd edir ki, bundan sonra tez-tez bu məkana üz tutacaqlar.

Parkda olarkən istirahət edənlər arasında xarici ölkə vətəndaşları ilə də rastlaşdım. Onlardan Cənubi Koreya vətəndaşı, Naxçıvan Dövlət Universitetində Koreya dilini tədris edən müəllim Seo Suminin fikirləri maraqlı oldu:

– Artıq bir neçə ildir ki, Naxçıvanda yaşayır, burada çalışıram. Bu diyarın füsunkar təbiəti məni heyran edir. İstirahət guşələrinə də tez-tez üz tuturam. Bu parkda dəfələrlə olmuşam. Məkan o qədər cəlbedicidir ki, bir dəfə gəldinsə, yenə gəlmək istəyirsən. Sərin meh, hovuzun fəvvarəsi, uşaqların gülüş səsləri, ruhun qidası olan musiqilər, qayıqların suda lövbər salması bu məkanın əsas çalarlarıdır. Başqa sözlə, burada istirahət edən insan sanki xəyallar aləminə düşür. Ətrafımdakı insanlara, dost-tanışa da istirahət üçün bu yeri məsləhət görürəm.

*Bu gün Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında görüşüb söhbət etdiyimiz hər kəs yaradılan gözəl şəraitdən ağızdolusu danışdı. Bu məkanın təkcə uşaqlara deyil, böyüklərə də xoş təsir bağışladığı bir daha aydın oldu. Hər kəsə bu isti yay günlərində gözəl istirahət diləyi ilə...*

✍ **Nail ƏSGƏROV**

## Tibbi xidmətin səviyyəsi yüksəldilir

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini iyul ayında da davam etdirib. İxtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması diqqət mərkəzində saxlanılıb, səhiyyə müəssisələri lazımi tibbi preparatlarla təmin olunub.

Səhiyyə sistemində kadrların bilik və bacarıqlarının artırılması məqsədilə 15 həkim Türkiyə Respublikasının müxtəlif universitetlərinə və Bakı şəhər tibb müəssisələrinə təcrübəyə göndərilib, 75 orta tibb işçisi sertifikasiya imtahanına cəlb olunub. Yaylaqların ərazisində məskunlaşan heyvandarların kütləvi tibbi müayinəsi təmin edilib.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkim briqadası tərəfindən Naxçıvan Muxtar Respublika Xəstəxanasında və Babək rayonunda 167 müayinə, 17 katarakta əməliyyatı aparılıb, 20 nəfər Mərdəkan qəsəbəsində yerləşən Müharibə və Əmək Veteranları Pansionatına, 21 nəfər müxtəlif xəstəxanalara müalicəyə göndərilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Beynəlxalq Gənclər Günü münasibətilə tədbirlər keçirilib

*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin Üzgüçülük Mərkəzində 12 avqust – Beynəlxalq Gənclər Günü münasibətilə qızlar arasında üzgüçülük üzrə şəhər birinciliyi keçirilib.*



Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və Olimpiya-İdman Kompleksinin birgə təşkil etdiyi birincilikdə 30 idmançı 3 yaş qrupunda mübarizə aparıb. Üzgüçülüyün sərbəst üsulu üzrə 25 metr məsafədə keçirilən yarışın yekun nəticəsinə əsasən 2001-2003-cü illər təvəllüdlü idmançılar arasında Nərmin Həsənova, 2004-2006-cı illər təvəllüdlü idmançılar arasında Gülan Əhmədova və 2007-2008-ci illər təvəllüdlü idmançılar arasında Röya Məmmədova qalib adını qazanıblar.

Sonda idmançılar diplomlarla təltif olunublar.

* * *



12 avqust – Beynəlxalq Gənclər Günü münasibətilə Naxçıvan Şahmat Mərkəzində gənclər arasında şahmat üzrə Naxçıvan Muxtar Respublika birinciliyi keçirilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin və Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə olimpiya sistemi üzrə keçirilən birincilikdə 50 nəfər şahmatçı iştirak edib. Yarışın yekununa əsasən Əli Qulamzadə I, Ayxan Əliyev II, Həsən Rəhimov isə III yerlərə layiq görülüblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

*__Sual:__ Nikahın bağlanma qaydası və şərtləri qanunvericiliklə necə müəyyən olunur?*

***Cavab:*** Nikah ailə hüquq münasibətlərini yaradır və o, qanunla müəyyən olunmuş qaydada kişi və qadının ailə qurmaq üçün bağlanan azad və könüllü ittifaqıdır. Hüquqi dövlətdə bütün hüquqlar kimi bu hüquq da dövlət tərəfindən tanınır və qorunur. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ var. Konstitusiyanın 34-cü maddəsində qeyd olunur ki, nikah könüllü razılıq əsasında bağlanır və heç kəs zorla evləndirilə (ərə verilə) bilməz.

Ailə qanunvericiliyində nikahın bağlanması üçün bir sıra qaydalar və şərtlər nəzərdə tutulmuşdur. Ailə Məcəlləsinin 9-cu maddəsində qeyd olunur ki, nikah müvafiq icra hakimiyyəti orqanı tərəfindən nikaha daxil olmaq istəyən şəxslərin bu barədə ərizə verdikləri gündən 1 ay sonra onların iştirakı ilə bağlanır. Üzrlü səbəblər olduqda, nikahın bağlanma müddəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən azaldıla və ya 1 aydan çox olmayan müddətdə uzadıla bilər. Xüsusi hallarda (hamiləlik, uşağın doğulması və digər hallarda) nikah ərizə verilən gün bağlana bilər. Ər və arvadın hüquq və vəzifələri nikahın bağlanmasının dövlət qeydiyyatı günündən yaranır. Ailə Məcəlləsinin 10-cu maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikasında nikah yaşı kişilər üçün 18 yaş, qadınlar üçün 17 yaş müəyyən olunur. Nikahın bağlanması üçün nikaha daxil olan şəxslərin yazılı razılığı və onların nikah yaşına çatmaları zəruridir. Nikahın qeydiyyatı nikaha daxil olan şəxslərin iştirakı ilə həyata keçirilir. Tərəflərə nikahın bağlanmasını təsdiq edən şəhadətnamə verilir.

**İradə QULİYEVA**
***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Təşkilat-nəzarət şöbəsinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 577